*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 2* *ISSN 2663-4368*
*Səhifə: 187-194* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.2.187*

# II Məşrutiyyət dönəmi Türkiyə satirik mətbuatı

**Gülbəniz Babayeva**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: gulbeniz-babayeva@mail.ru

**Annotasiya.** Məqalədə Türkiyə satirik mətbuatının II Məşrutiyyət dönəmi tədqiqat predmetinə çevrilir. Göstərilir ki, bu mərhələyə kimi dövləti və hakimiyyəti tənqid edən satira dərgiləri sarayın nəzarəti altında olmuş, senzurayla üz-üzə qalmış və bağlanmaya qədər ağır bir yol keçmişdir. II Məşrutiyyətin elanından sonra (1908-1918) Türkiyə həyatında diqqətçəkən ən önəmli məsələlərdən biri satirik dərgilərin yayımlanması olmuşdur. II Məşrutiyyətin ilk ilində 92 satirik dərgi və qəzet nəşr edilmişdir. Bu zamana qədər ölkə daxilindən bəhs edən karikaturalarda padşahlar, sədr-əzəmlər deyil, onlardan aşağı vəzifə daşıyanlar karikaturaların hədəfinə çevrilə bilərdilər. Artıq bunlar arxada qalmış və satirik dərgilərin fəaliyyəti üçün münbit şərait yaranmış, karikaturaların nəşri reallaşmışdır. Elə buna görə də satirik dərgilərin oxucu kütləsi üzərindəki təsiri qəzet məqalələrinin təsirindən daha güclü idi. Bu dönəmdə "İqdam", "Sabah", "Tərcümani-həqiqət", "Səadət" kimi fikir, düşüncə qəzetləri ilə yanaşı, "Quduk", "Hacivat", "Kahkaha" (1875), "Şaka", "Şair Nedim", "Püsküllü Bela", "Kalem", "Cingöz", "Hokkabaz", "Geveze", "Dalkavuk" (1908), "Coşkun Kalender", "Davul", "Kel Hasan", "Laklak" (1909), "Eşek", "Qıdık" (1910), "Cadaloz", "Curcuna", "Falaka" (1911), "Nasreddin Hoca", "Karikatür" (1914) kimi satirik qəzet və dərgilər nəşr edilmişdir. Bu dərgilər əvvəlcə əyləncə məqsədi daşısa da, zaman keçdikcə ölkə daxilindəki ictimai-siyasi, sosial həyatda baş verən gerilikləri, çatışmazlıqları, mənfi halları tənqid etməyə yönəldilmişdir.
**Açar sözlər:** II Məşrutiyyət, Türkiyə satirik mətbuatı, Gənc Türk hərəkatı, "Karagöz", "Zuhuri", "Tasvirihayal", "Eşref", "Hayali-Cedit", "Feylesof"

**Məqalə tarixçəsi:** göndərilib – 10.07.2024; qəbul edilib – 22.07.2024

# Turkish satirical press during the Second Constitutional Era

**Gulbeniz Babayeva**
Doctor of Philosophy in Philology, Associate Professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: gulbeniz-babayeva@mail.ru

**Abstract.** In the article is studied the Turkish satirical press during the Second Constitutional Era. It is noted that satirical magazines criticizing the state and government were under the control of the palace up to this stage and faced censorship. After the announcement of the second Constitutional Era (1908-1918) one of the most important issues in Turkish life has been the publication of satirical magazines. In the first year of the Second Constitutional Era 92 satirical magazines and newspapers were published. Until this time, the target of the caricatures depicting the events in the country might not have been the kings and grand viziers, but those in lower positions than them. These have long been left behind, conditions have been created for the activity of satirical magazines, and the publication of caricatures has become a reality. For this reason, the influence of satirical magazines on the readership was stronger than that of newspaper articles. During this period, along with newspapers of opinion and thought "Igdam", "Sabah", "Terjumani-Hagigat", "Seadet" the satirical magazines and newspapers such as "Guduk", "Hajivat", "Kahkaha" (1875), "Shaka", "Shair Nedim", "Puskullu Bela", "Kalem", "Cingoz", "Hokkabaz", "Geveze", "Dalkavuk" (1908), "Joshkun Kalender", "Davul", "Kel Hasan", "Laklak" (1909), "Eshek", "Gidik" (1910), "Jadaloz", "Jurjuna", "Falaka"

(1911), “Nasreddin Hoja”, “Caricature” (1914) were published. These publications at first had the purpose of entertainment, but over time, they focused on criticizing the backwardness, shortcomings, and negative situations in the country's socio-political and social life.

**Keywords:** the Second Constitutional Era, Turkish satirical press, Young Turk Revolution, “Karagoz”, “Zuhuri”, “Tasviri-hayal”, “Eshref”, “Hayali-Jedit”, “Feylesof”

**Article history:** received – 10.07.2024; accepted − 22.07.2024

## Giriş / *Introduction*

Osmanlı satirik mətbuatı ilk mərhələdə Tənzimatla birlikdə modern dövlət qurmaq yolunda atılan addımları satirik bir dillə anlatmağa çalışmışdır. Ancaq mədəniləşmə yolunda atılan addımları yetərsiz görmüş və yaşanan çatışmazlıqların Osmanlı ictimai həyatında və sosial yaşam tərzində hansı dəyişikliklərə yol açdığını göstərmişdir. Bu dövrdə dövləti və hakimiyyəti tənqid edən satira dərgiləri sarayın nəzarəti altında olmuş, senzurayla üz-üzə qalmış və bağlanmaya qədər ağır bir yol keçmişdir. Osmanlı satirik mətbuatı bu dönəmdə üç təməl özəlliyilə tanınmışdır: dəyişməz forma və strukturu, sadə xalq tərzində və yüksək təbəqədən qaynaqlanan ikili mədəniyyət əsasına dayanması və bədahətən, gözlənilmədən yayımlanması ilə. Salih Seyhan yazır ki, *“1870-1877-ci illər arasında osmanlıca 20 satirik dərgi yayımlanmış, ancaq 8 may 1877-ci il tarixdən Heyəti Məbusan bu dərgilərə yasaq qoymuşdur”* [11, s.494]. Satirik dərgilər əvvəlcə əyləncə məqsədi daşısa da, zaman keçdikcə ölkə daxilindəki ictimai-siyasi, sosial həyatda baş verən gerilikləri, çatışmazlıqları, mənfi halları tənqid etməyə yönəldilmişdir.

Yüzilliyin sonlarına doğru ortaya çıxan Gənc Türk hərəkatı ilə satirik mətbuat və karikatura artıq sürgün dönəminə daxil olmuşdur. Bu hərəkat satirik mətbuatdan və xüsusilə də karikaturadan güclü bir silah kimi yararlanmışdır. Ölkə xaricində sürgündə olan müxtəlif karikaturaçılar Türkiyədə fəaliyyət göstərən “İttihad və Tərəqqi”nin apardığı siyasəti dəstəkləmiş və Əbdülhəmid rejiminin əleyhinə çıxan mətbuat orqanlarında onun karikaturalarını çəkərək tənqid hədəfinə çevirmişlər. Əbdülhəmid isə iqtidaryönümlü qəzetlərin nəşrinə icazə versə də, onu karikaturaları və kəskin satirik yazıları ilə ittiham edən azad mətbuata, satirik dərgilərin çapına qadağa qoymuşdur. Buna görə də ölkə daxilində fəaliyyəti dayandırılan karikaturaçılar ancaq xaricdə öz işlərini davam etdirmişlər. Həm Avropada, həm də digər xarici ölkələrdə yaşayan türk rəssamlar Sultan Əbdülhəmidi aşağılayan karikaturalar çəkdikləri üçün bu mərhələdə senzuranın kəskin şiddəti ilə üz-üzə qalmışlar. Demək olar ki, II Məşrutiyyətin elanıyla bərabər, ən böyük partlayış satirik dərgilərin yayımlanması olmuşdur. Bu zamana kimi ölkə daxilindən bəhs edən karikaturalarda padşahlar, sədr-əzəmlər deyil, onlardan aşağı vəzifə daşıyanlar karikaturaların hədəfinə çevrilə bilərdilər. Artıq bunlar arxada qalmış və satirik dərgilərin fəaliyyəti üçün münbit şərait yaranmış, karikaturaların nəşri reallaşmışdır. Elə buna görə də satirik dərgilərin oxucu kütləsi üzərindəki təsiri qəzet məqalələrinin təsirindən daha güclü idi. Bu dönəmdə “İqdam”, “Sabah”, “Tərcümani-həqiqət”, “Səadət” kimi fikir, düşüncə qəzetləri nəşrə başlamış, satirik mətbuat sahəsindəki boşluğu “Quduk”, “Hacivat”, “Kahkaha” (1875), “Şaka”, “Şair Nedim”, “Püsküllü Bela”, “Kalem”, “Cingöz”, “Hokkabaz”, “Geveze”, “Dalkavuk” (1908), “Coşkun Kalender”, “Davul”, “Kel Hasan”, “Laklak” (1909), “Eşek”, “Qıdık” (1910), “Cadaloz”, “Curcuna”, “Falaka” (1911), “Nasreddin Hoca”, “Karikatür” (1914) kimi qəzet və dərgilər doldurmuşlar. Turqut Çeviker “Gelişim Sürecinde Türk Karikatürü” başlıqlı üçcildlik əsərinin Məşrutiyyət Dönəmini (1908-1918) əhatə edən ikinci cildində bu mərhələdə 92 satirik dərgi və qəzetin olduğunu təsbit etmişdir. Bunlardan 40-ı 1908-ci ilin son beş ayında ortaya çıxmışdır. Lakin onların az bir qismi bir ildən artıq nəşr edilmişdir. Satirik mətbuatın ömrü uzun olmasa da, bunların arasında “Karagöz” kimi yarım əsrə yaxın öz fəaliyyətini davam etdirənlər də var idi.

**Əsas hissə / *Main Part***

1908-ci il Məşrutiyyətindən sonra çıxan qəzetlərdə, əsasən, sayı çox olan həftəlik satirik dərgilərdə "İttihad və Tərəqqi"nin basqılarına qarşı edilən hücumlar gündən-günə artmışdır. II Əbdülhəmid zamanında yazarlar dərgilərdən qəzetlərə axın etməyə başlamış və Yıldız Sarayının siyasi kadrları qəzetlər vasitəsilə tənqid edilmişlər.

II Məşrutiyyət dönəmində (1908-1918) yayımlanan satirik dərgiləri Nermin Yazıcı üç başlıq altında qruplaşdırmışdır: "a) Ənənəvi satirik dərgi və qəzetlər; b) Batı (Qərb) tərzində modern satirik dərgi və qəzetlər; c) "Eşek" tipli satirik dərgi və qəzetlər" [7]. Birinci qrup altında yer alan yayımlar Tənzimat dönəmində nəşr olunan "Diyojen" və "Hayal" ilə əsası qoyulan satirik dərgilər tərzindədir. Bu tip qəzetlərdə düz yazılar Karagöz ilə Hacivatın qarşılıqlı söhbəti əsasında qələmə alınmışdır. Karikaturalarda da bu tiplər yer almışdır. Bu qrupda yer alan dərgilər aşağıdakılardır: "Karagöz" (1908), "Nekregu" (1908), "Zuhuri" (1908), "Tasvirihayal" (1908), "Hacivat" (1908), "Geveze" (1908), "İbiş" (1909), "Nekregu ilə Pişekar" (1909), "Eşref" (1909), "Hayali-Cedit" (1910), "Cadaloz" (1911), "Baba Hikmet" (1911), "Köylü" (1913), "Feylesof" (1914). İkinci qrupa daxil edilən, "Cem" dərgisinin də içərisində yer aldığı bu dərgilərdə ənənəvi satirik anlayışlarla ortaya çıxan qarşılıqlı söhbətlər yerinə problemlərə yazarların düz yazıları ilə çarələr aranmış və fərdi üslub aparıcı olmuşdur. Siyasi və ictimai mövzularda xalqın ümumi təmayülü yer almaqla bərabər, yazarın öz görüşlərinə də yer verilmişdir. Bununla yanaşı, satirik ünsür olaraq ironiya, kinayə, mübaliğə və istehzadan daha çox istifadə olunmuşdur. Bu qruplaşma altında yer alan dərgilər Qərb (Batı) yönümlü satiranın ilk örnəkləridir. Bu səbəblə də forma və məzmunda, karikaturada Qərb, əsasən də, fransız təsiri açıq-aydın duyulmaqdadır. Dərgilərin kadrları Qərbi və Qərb satirasını tanıyıb öyrənir və bu çərçivədə işlərini həyata keçirirdilər. Həmin qrupda yer alan dərgilər isə bunlardır: "Kalem" (1908), "Boşboğaz ilə Güllabı" (1908), "Dalkavuk" (1908), "Davul" (1908), "Laklak" (1909), "Cem" (1910), "Kara Sinan" (1911), "Karikatür" (1914), "Hande" (1916), "Diken" (1918). Üçüncü qrupda verilən satirik dərgi və qəzetlərin öncülü Baha Tevfik tərəfindən yayımlanan "Eşek" dərgisidir. Dərgi bir tərəfdən xalq oyun və tamaşaları, yumoristik və satirik qəhrəmanları ilə dolub daşan, o biri tərəfdən də modern üslubu gətirib davam və inkişaf etdirən nəşrlər arasına girmiş maraqlı yayımlar zəncirinin ilk həlqəsidir. Bu cür dərgilər daha çox satiraya, həcvə yönələn, əsasında sərt və qara boyalarla rənglənmiş satirik ittihama dayanan yayımlardır. Bu qrupda yer alan dərgilər aşağıdakılardır: "Eşek" (1910), "Kibar" (1910), "Alafranqa" (1910), "El Malum" (1910), "Yuha" (1910), "Eşek/2" (1912) və s. 23 iyul 1908-ci il tarixdən mətbuatda Türkiyənin ictimai həyatında baş verən dəyişmələrlə əlaqədar olaraq sürətli bir inkişaf görünür. II Məşrutiyyətin ilk ilində artıq iki yüzdən çox mətbuat orqanının nəşrə başlaması müşahidə olunur. Mizah qəzetlərinin sayı ilk ildə doxsan iki, *"1911-ci ildə on beş, 1912-ci ildə isə aralarında "Eşek"dərgisinin də olduğu üç yayımla əhatə olunmuşdur"* [8, s.106]. 1908-ci il – Türkiyə milli mətbuatında sərhədsiz söz azadlığı təsiri bağışlayan bu dönəm çox keçmədi ki, öz yerini senzuraya verdi. Qəzet və jurnallar öz yayımlarını müstəqil həyata keçirdiyi bir vaxtda sərt senzura ilə üzləşmişlər. İttihad və Tərəqqi Cəmiyyətinin 1908-1909-cu illərdə mətbuat orqanlarında II Əbdülhəmidi hədəf seçən kəskin ifşaedici satirik yazılara və karikaturalara geniş yer verməsi çoxlu sayda qəzet və jurnalların bağlanmasına səbəb olmuşdur. II Məşrutiyyət dönəmində mətbuat aləmində baş verən bu ziddiyyətli mərhələni araşdırmaçılar fərqli müstəvidə qruplaşdırmağa çalışmışlar. François Georgeon bu dönəmi "Osmanlı satirik mətbuatının yaranması (1870-1877) və 1908-ci ildə Gənc Türk Hərəkatının fəaliyyətə başlaması ilə satirik mətbuatın çoxalması" [5, s.24-28] mərhələsi şəklində iki qrupa ayırır. Brummet isə daha fərqli mövqedən yanaşaraq, II Məşrutiyyət dövrü satirik mətbuatını sultana qarşı "basqın", təzyiq göstərən, "anti-imperialist" [2, s.139] ifadələrilə səciyyələndirmişdir. 1908-ci ildən sonra satirik mətbuata partiyaların təsirini ön plana çəkən

Ferit Öngören "türklərin və ermənilərin nəşr etdikləri satirik yayımları Avropada fəaliyyət göstərən qəzet və jurnallar kimi, siyasi bir mərkəzlə bağlı olan yayımlar" [9, s.61] şəklində təsnif etmişdir. Tanınmış araşdırıcı Turqut Çeviker bu mərhələdəki yayımları "ənənəvi, modern "Eşek" tipli satirik və bir saydan ibarət olan risalələr" [3, s.1103] formasında qruplaşdırmışdır. Türkiyə mətbuatının bu mərhələsində Baha Tevfiqin nəşr etdiyi satirik qəzet və jurnallar öz kəskin üslubu və ifadə tərzi ilə seçilirdi. *"II Məşrutiyyət illərində İzmirdən İstanbula gələn Baha Tevfik hələ İzmirdə ikən İttihad və Tərəqqi əleyhinə yazılar yazırdı. Burada yazdıqları İstanbulda tanınmasına imkan vermişdir. İstanbulda isə qəzet və dərgilərdə çalışmış, özü də çeşidli yayım orqanları çıxarmışdır"* [6, s.862 ]. Baha Tevfik Türkiyənin ilk fəlsəfə dərgisi olan "Felsefe Mecmuası", "Piyano", "Zeka", "Yirminci Asırda Zeka" , "Hande" kimi metbuat orqanlarını nəşr etmişdır. O, "Piyano" məcmuəsinin 7 noyabr 1910-cu il 11-ci sayında yaxın zamanlarda "Eşek Qazetesi" adlı satirik dərginin nəşrə başlaması haqqında məlumat yerləşdirmişdir. 29 noyabr 1910-cu ildə ilk nömrəsi çapdan çıxan "Eşek" qəzetinin yalnız bir sayı çıxdıqdan sonra ciddi təzyiqlərə məruz qalır və fəaliyyətini dayandırır. Baha Tevfik bir həftədən sonra "Kibar" adlı "Eşek" tipli satirik bir dərgi nəşr etdirir. Lakin bu dərgi də ilk nömrədən sonra qapadılır. Mübarizədən çəkinməyən Baha Tevfik 15 dekabr 1910-cu ildə "Yuha"nı çapdan çıxarır. Onun da taleyi digərləri kimi olur. Bu dərgilərə nisbətən bir az uzunömürlü olan "Malum"u nəşr etdirir, altı sayından sonra onun da nəşri dayandırılır. Nəhayət, iki il sonra, 1 avqust 1912-ci ildə yenidən "Eşek" dərgisi nəşrə başlayır. Əvvəlcə çıxardığı eyniadlı qəzetin davamı olan bu mətbuat orqanının on doqquz sayı işıq üzü görmüşdür. Dərgidə Şeyxinin, Molla Lütfinin "Harname"sində, Nəsrəddin Hocanın lətifələrində, bir çox atalar sözlərində və məsəllərdə eşşək və onun özünəməxsus xüsusiyyətləri haqqında məlumatlara yer verilmişdir. Şinasinin "Eşek" ile Tülkü Hikayesi", Yusif Ziya Ortacın "Eşekname"si, Salah Birselin "Eşege Övgü"sü də bu silsiləyə daxil olan əsərlər sırasındadır. Qədim zamanlardan yük daşınmasında istifadə olunan eşşək nə qədər yüklənsə də, səsini çıxarmaz, səbrlə dözər, digər bir tərəfdən isə inadcıllığı ilə seçilər və tanınar. Bütün bunlar haqqında Şanzuminin fikirləri də maraqlı görünür: *"Eşşəyə heyvanlar aləminin dərvişi bənzətməsi boşuna deyil. Yeyəcəyin, geyəcəyin ən kötüsü eşşəyə layiq görülmüşdür. Eşşəyin böyük bir səbri olduğunu eşşəklə pis rəftar etmək hüququ olanlar bilir"* [12, s.22]. Göründüyü kimi, eşşəyin dərviş kimi simvollaşdırılması onun həm də satirik mətbuat və ədəbiyyatda fərqli bir yönə malik olmasına işarət edir. Baha Tevfik dövrün əsas mətbuat orqanları ilə rəqabətə girərək cəmiyyətdəki hakim dairələrə qarşı etirazları, haqsızlıqları, insan əməyinin istismar edildiyini, ədalətsizliyi, azad fikir və düşüncənin boğulmasını məhz "Eşek" adının mahiyyətində simvollaşdırmışdır. Bu, mövcud quruluşa, onun hakim qüvvələrinə ən kəskin və ciddi bir etiraz idi. "Eşek"in ilk sayında dərc edilən "İfademiz, yahut ilk Anırtı" başlıqlı yazı da fikrimizi əsaslandırmağa imkan verir: *"Əhalimiz daha bu qədər xoş bir qəzet görməmişdir, təbii bizdən çox məmnun olacaqlar"* [4]. Qəzet ilk sayından sonra bağlandıqda iki il fasilə vermiş, yenidən yayımlandığı zaman ön sözü əvəz edən "İlk Anırtı"da "İttihad və Tərəqqi"nin 16 iyul 1912-ci ildə düşən kabinəsinə işarə edərək "Kabinə düşdü, mən çıxdım" ifadəsi ilə nəşrə başlamışdır. "Eşek" qəzetində yer alan satirik yazıların çoxçeşidliyində "İttihad və Tərəqqi"nin siyasətini tənqid edən yazı və karikaturalar, Avropanın mürtəce və işğalçı siyasətinin ifşasına yönəlmiş məqalələr, publisistik nümunələr, eləcə də dövriyyədə olan qəzet və jurnallarla bağlı ironik və satirik yönümlü yazılar mühüm yer tuturdu. Qəzetdə dərc edilən satirik və tənqidi yazılar digər mətbuat orqanlarında olduğu kimi, içərisində yaşadığı cəmiyyət və dövrlə əlaqəli şəkildə əksini tapmışdır. "Eşek"də onunla eyni bir vaxtda nəşr edilən qəzet və dərgilərin yazarları sırasında daha çox Hüseyn Cahit və Ali Kemalın adları tənqid hədəfinə çevrilmişdir. Məlumdur ki, II Əbdülhəmid dönəmində mətbuat azadlığı olmadığı üçün mütərəqqi insanlar-mətbuatla sıx bağlı olan şair, yazıçı və rəssamlar "İttihad və Tərəqqi"nin basqılarına məruz qalmışlar. Baha Tevfik də məhz ölkənin ictimai-siyasi və ədəbimədəni həyatındakı qanun pozuntularını, mənəvi sıxıntıları və daxili aşınmaları özünəməxsus bir dillə ifşa edərək yazır ki, hürriyyət var, məş-

rutiyyət, müsavat var, hər şey var, bunun mövcudatına “Eşek”in intişarı dəlildir. Lakin istirahət yoxdur. “İttihad və Tərəqqi”nin yaratdığı senzura karikaturaların da mövzusuna çevrilmişdir. “Eşek” qəzetində “İttihad və Tərəqqi” Cəmiyyəti ilə II Əbdülhəmid arasındakı bənzərliyi müqayisəli şəkildə əks etdirən bir karikatura diqqəti çəkir. Şəkildə eşşəyin əlindəki tərəzinin bir gözündə ittihadçılar, digər gözündə isə Əbdülhəmid təsvir edilmişdir. Lakin tərəzinin Əbdülhəmid əyləşən gözü daha ağır olduğundan həmin tərəf aşağı əyilmişdir. Bununla belə eşşəyin “İttihadçı qardaşlarımızı ilk dəfə yüksəlmiş görürük” – söyləməsi məhz II Əbdülhəmidlə ittihadçıların eyni mövqedən çıxış etməsini göstərən acı bir həqiqətin dürüst ifadəsidir. Qəzet nəşri boyunca “İttihad və Tərəqqi”nin yanlış siyasətini, pozuculuq fəaliyyətini, azadlıq və istiqlala qarşı çıxmasını öz karikaturalarında eşşəyin dili ilə ifşa predmetinə çevirmişdir. Ümumiyyətlə, karikatura satirik dərgi və qəzetlərin inkişafında müstəsna rol oynamışdır: *“Osmanlı satirası dərgilərdə şəkildən-şəklə bürünmüşsə də, satiradan istifadə sayəsində Osmanlı karikaturaları basqın simvollarını ən dramatik biçimdə dilə gətirmək funksiyasını yerinə yetirmişdir”* [2, s.140]. Qəzetdə Osmanlı Dövlətinin xarici siyasətini, eyni zamanda Avropanın bu ölkədəki maraqlarını əks etdirən karikaturalara da yer verilmişdir.

II Məşrutiyyət illərini Osmanlı dövrü satirasının ən önəmli mərhələsi hesab etmək olar. Çünki bu dövrdə nəşr edilən “Eşek” və onun davamçıları olan qəzet və dərgilərin nəşri satiranın daha böyük vüsət aldığını göstərir. Baha Tevfikin iradəsi sayəsində yayım həyatına başlayan bu satirik qəzet özünəməxsusluğu ilə seçilmiş, özündən sonra “Eşek” tipli dərgilərin nəşrinə geniş imkanlar açmış və örnəyə çevrilmişdir. Belə bir nəticəyə gəlmək mümkündür ki, bəlli bir ictimai-siyasi mühit və dönəmin içərisində nəşr edilən “Eşek” qəzeti müxalif mövqe sərgiləsə də, bir çox məqamlarda bitərəf təsiri bağışlayır. Baha Tevfik inadla, prinsipiallıqla, israrla nəşr etdirdiyi “Eşek” qəzetində öz hədəflərinə çata bilmiş, istədiyi məqsədinə nail olmuşdur.

1908-ci ildə İkinci Məşrutiyyətin elanından sonra türk satirik mətbuatında fikirlər tamamilə dəyişir. Əbdülhəmidin taxtdan endirilməsi və Məşrutiyyətin elan edilməsi ilə bir vaxtda otuz beşdən artıq satirik dərgi nəşrə başlayır. Öngören yazır ki, belə bir hadisə Türkiyə tarixində görünməmişdir. Hətta onun qənaətinə görə, belə bir hadisə Avropada da görünməmişdir. Öngören Məşrutiyyətdən sonra yayımlanmağa başlayan satirik dərgiləri aşağıdakı şəkildə sıralamışdır: *“23 iyul 1908-ci ildə, yəni İkinci Məşrutiyyətin elanından bir həftə sonra, 1 avqust 1908-ci il tarixindən satirik dərgilər nəşrə başlayır. Avqust ayı içərisində on beş satirik mətbuat orqanı yayımlanır: “Püsküllü Bela”, “Qramofon”, “Mirat-I Alem”, “Karagöz”, “Elfürük”, “Nekregü”, “Zuhuri”, “Tasvir-i Hayal”, “Kalem”, “Cingöz”, “Üç Gazete”, “Zevzek”, “Dalkavuk”; 1908-ci il sentyabr ayında dokkuz: “Temaşa”, “Tonton”, “Cellat”, “Hacivat”, “Elüfürük”, “Mahkum”, “Hokkabaz”, “Karakuş”, “Resimli Şakaçı”; 1908-ci ilin oktyabr ayı içinde dörd: “Edep Yahu”, “Şakrak”, “Tavus”, “Davul”; noyabr ayında isə üç satirik dergi yayımlanır: “İbiş”, “Geveze”, “Papağan”. Hürriyyətin elan edildiyi 1908-ci ildə bütövlükdə qırx bir satirik dərgi yayımlanmışdır” [10, s.62].*

İkinci Məşrutiyyət Dönəminin görkəmli satirik yazarları içərisində Refik Halit Karay, Ömer Seyfettin, Neyzen Tevfik, Hüseyn Kami və məşhur karikaturaçı rəssam Cemil Cemin adlarını xüsusi qeyd etmək olar. Bu dönəmdə Ahmet Midhat ənənələrini davam etdirən Osman Cemal Kayğılı və Sermet Muhtar Alus da Məşrutiyyət Dönəminin satirik sənətkarları sırasında yer almışdır.

Tərəqqi və Qurtuluş Savaşı Dönəmindəki satira İstanbul və Ankara ətrafında yaranmış və formalaşmışdır. *“Ankara hökumətini dəstəkləyən satirik dərgi “Güleryüz”, dərgini çıxaran isim Sedat Simavi ikən, İstanbul hökumətini dəstəkləyən satirik dərgi “Aydede”, dərgini çıxaran isim isə Refik Halit Karaydır”* [10, s.68]. Bunlardan başqa, Qurtuluş Savaşını dəstəkləyən mizah dərgilərindən digəri 1920-ci ildə Ercüment Ekrem ilə Aka Gündüzün birlikdə çıxardıqları “Alay”dır.

II Məşrutiyyət dönəmi mətbuat həyatının önəmli problemlərindən biri də 31 Mart hadisəsinin üzərindən iki ay keçmədən dərgilərdə “düşüncə və ifadə azadlığımızı əlimizdən almayın” tipli yazıların görünməyə başlamasıdır. II

Məşrutiyyətin elanından sonra (1908) Türkiyədə 92-dən çox satirik qəzet və jurnal nəşr edilmişdir. Azərbaycan satirik mətbuatında isə "Molla Nəsrəddin" jurnalı iki il idi ki, fəaliyyət göstərirdi. Bu dövrdə türk satirik mətbuatında "Boşboğaz ilə Güllabı", "Püsküllü Bela" və "Kahya Kadın" kimi dərgilər nəşr olunurdu. "Boşboğaz ilə Güllabı"da dərc edilən ciddi yazıların altında redaktorun adı verilirdi. Dərginin ilk sayının 2-ci səhifəsində Hüseyn Rəhmi imzasıyla əski zamanlarda mövcud olan sui-istifadə hallarını, saxtakarlığı, hakim dairələri ifşa edən "Boşboğazın ciddi məqaləsi" adlı bir yazı dərc edilmişdir. Dərgi öz səhifələrində yumoristik və satirik mətnlərə geniş yer verir, yeri gəldikcə ciddi yazılar da çap edirdi. Dərginin hər sayında "Molla Nəsrəddin"dəki "Mətbuat xəbərləri" rubrikasında olduğu kimi, dövrün qəzetlərindən seçilmiş xəbərlər satirik və yaxud yumoristik bir dillə, "Mühavere" başlıqlı yazılar vasitəsilə oxuculara çatdırılırdı. Bu xəbərlər Boşboğaz ilə Güllabının qarşılıqlı dialoqu əsasında qurulurdu. Boşboğaz təhsilli, elmli, hadisələri, problemləri aydın dərk edən, lakin gözləmə mövqeyi tutan bir obraz kimi xarakterizə olunur, Güllabı isə xalqı təmsil edən saf, təmiz, lakin savadsız və sadəlövh insanların ümumiləşmiş, tipik xarakteri kimi diqqəti cəlb edirdi. Xalqda belə bir inam yaranmışdır ki, hürriyyət elan edilmiş, artıq bayram gəlmişdir. Sanki sehrli bir dəyənək hər şeyə toxunacaq və bütöv ölkə güllük, gülüstanlıq olacaq, hətta Avropanı heyran qoyacaq bir duruma gələcəkdir. Əski dönəmin siyasətçilərindən haqq-hesab soruşulacaq, senzura qorxusu əbədi olaraq mətbuat üzərindən qaldırılacaqdır. Bütün bunların yalnız bir xəyal olduğunu anlamaq üçün isə cəmi bir il vaxt keçəcəkdir. "Boşboğaz" ilə "Güllabı"da [1, s.1] əksini tapan bir karikatura bu fikri əyani şəkildə oxuculara çatdırmışdır. Şəkildə bir xanımın təsviri verilmiş, bu obraz Məşrutiyyətin simvolu kimi xarakterizə olunmuş və əlinə aldığı süpürgəsilə nələrə qadir olduğunu göstərməkdədir. Karikaturanın altında yazılmışdır: "Qanunu Əsası"nın elanından sonra Hürriyyət meydan süpürgəsilə küçələri xəfiyyələrin, dələduzların vücudlarından təmizləyir. Münir Paşa durbin ilə Bükreşdən Dersaadeti seyr edir. Pulları ələ keçirib mənimsəyənlər gəmilərə minib qaçır, qaça bilməyənlər isə dalda yerlərdə gizlənirlər. Hürriyyət elan edənlər də dərginin sərt ittihamı ilə rastlaşmışlar. İttihad və Tərəqqi Cəmiyyətinin öndərləri Ənvər Paşa, Camal Paşa və Tələt Paşa məsuliyyətin ağırlığından və təcrübəsizlikdən hökumətə dəstək olmaq əvəzinə, özlərinə dəstək olmaq üçün yaxınlarından birinin məbus və yaxud sədrəzəm seçilməsini istəyirlər. Qəzetdəki karikaturada əllərində bir top kimi təsvir edilən Türkiyəni tutan İttihad və Tərəqqi Cəmiyyəti öncüllərinin ağırlıqdan yorulduqları göstərilmiş və Əbdülhəmidin onlara xəbərdarlığı xatırladılmışdır. Karikaturanın şəkilaltı yazısında deyilir: "Pək ağır, əlimiz yoruldu. Mən sizə demədimmi? Atın bu tərəfə." Göründüyü kimi, karikaturada Türkiyənin müstəqilliyini axıradək qorumaqda dözümlülük, cəsarət və prinsipiallıq göstərməyənlər tənqid hədəfinə çevrilmişlər.

"İttihad və Tərəqqi" Cəmiyyətinin ziddiyyətli fəaliyyəti "Molla Nəsrəddin" jurnalının da tənqid hədəfi olmuşdur. Cəlil Məmmədquluzadənin jurnalda əksini tapan "Hilmi paşa", "Qəzetlərimiz", "Müsəlmanların ittihadı", "Osmanlı ilə İtaliya davası", "Qan hamamı" və başqa publisistik yazılarında bu cəmiyyətin düzgün siyasət yürütmədiyi və xalqa heç bir fayda verə bilməyəcəyi satirik bir dillə oxuculara çatdırılmışdır.

Bu dövrdə nəşr edilən səkkiz səhifəlik "Püsküllü Bela"da bir hadisə və yaxud əhvalat bəhanə edilərək əslində ictimai problemlər, hakim dairələr hədəf seçilmiş, həcv edilmiş və tənqidə məruz qalmışdır. Dərginin bütün saylarının ilk, orta və son səhifələrində imzasız karikaturalara yer verilmişdir. İlk dörd sayı ağ-qara rəsmlərlə nəşr edilən dərginin 5-ci sayından etibarən karikaturaların yer aldığı ilk və son səhifələri rəngli nəşr edilmişdir. Çərşənbə günü nəşr edilən qəzet həftədə bir dəfə çıxmışdır. Qəzetin redaktoru Hüseyn Hüsnü idi. "Püsküllü Bela"da çap olunan karikaturaların əsas mövzusu bunlardan ibarətdir: qəzetlər, qəzetçilər, xarici dövlətlərlə olan münasibətlər, mövqe sahibi olanlar, ictimai məsələlər və s. Dərgidə dövrün siyasi hadisələri ilk baxışda karikaturaların əsas mövzusu kimi seçilməsə də, sadəcə, oxucunu güldürmək və əyləndirmək fonu yaradılsa da, əslində əsas məqsəd yenə də hakim ideologiyanın apardığı siyasəti və xalqın sosial vəziyyətini tənqid hədəfi seçməkdir. "Püsküllü Bela"da dərc edilən

"Zərif sözlər" rubrikası "Molla Nəsrəddin" jurnalındakı "Atalar sözləri", "Hikmətli sözlər" və "Mənasız sözlər" rubrikaları ilə paralellik yaradır. Hər iki satirik mətbuat orqanında yer alan bu rubrikalarda dövrün qlobal məsələlərinin tənqidinə, ictimai-siyasi, sosial problemlərin ifşasına geniş yer verilir.

"Kahya Kadın" (1910) qəzeti birinci sayının ikinci səhifəsində dərc edilən "İhtar" yazısında öz məqsədinin millətin mənafeyinə xidmət etmək, heç bir partiyanın siyasi mübarizə və qurğularına qarışmamaq olduğunu bəyan etmişdir. Eyni zamanda hakim dairələrə səslənərək qəzetin dilinə müdaxilə edilməməsini rica etmişdir. Qəzetin naşiri Əli Rza, baş mühərriri Tolğalı idi. Həftənin çərşənbə və cümə günləri nəşr olunurdu. Qəzetdə sənət adamlarının taleyinə biganəlik də əks olunur, onların haqq səsinin batırılması acı təəssüf hissilə xatırlanır, "İttihad və Tərəqqi" dönəmində öldürülən qəzetçilərin faciəli taleyi karikaturalarda əksini tapırdı. Bununla yanaşı, "Sədayi-millət" qəzetinin baş yazarı Əhməd Saminin vəfatından kədərləndikləri də bildirilirdi. Qəzetin ilk sayında "Manqal başı" adlı dialoqa yer verilmişdir. Bu söhbətlər Kahya Kadınla Baş Kalfa arasında qurulurdu. Söhbətin əsas məğzini o təşkil edir ki, hər cür qəbahət işlədə bilərsən, ancaq onu başqalarına hiss etdirmə, bildirmə. Qəzet bu önəmli məsələlərə diqqət çəkməklə dövrün eyiblərini, çatışmazlıqlarını gündəmə gətirir, bacarıqsız, səriştəsiz və ləyaqətsiz insanları tənqid obyektinə çevirirdi.

## Nəticə / *Conclusion*

Bu dönəmdə mətbuatın ən zəngin, ən həyəcanlı və gerçəkdən böyük hadisəyə səbəb olan yayımları satirik qəzet və dərgilər olmuşdur. Bu mərhələnin xüsusi özəlliklərindən biri də satirik mətbuatla oxucu arasında sıx ünsiyyətin yaranması, yaxın əlaqənin qurulması idi. Oxucu ilə satirik mətbuatın bağlılığının əhəmiyyəti ondadır ki, o, bir tərəfdən öz ironik tənqidi ilə onların hissiyyatının tərcümanına çevrilir, digər tərəfdən isə oxucuların bu prosesin iştirakçısı olmasını təmin edir, onların danışıq dilindən yaradıcılıqla bəhrələnirdi. Satirik mətbuat sadə insanların həyatından bəhs edən problemlərə geniş yer vermiş, xəbər daşıyıcısı olan gündəlik və ya həftəlik qəzetlərdən daha çox fəallıq göstərmiş, onların üzləşdikləri çətinlikləri siyasi həyatla, məbuslarla, nazirlərlə, jurnalistlərlə əlaqələndirmişdir. Cəmiyyətdə yaşanan və yaşanacaq hər cür qorxunu, modernləşmənin gətirdiyi və ya gətirəcəyi təhlükələri dilə gətirmək missiyasını həyata keçirən önəmli bir vasitəyə çevrilmişdi.

## Ədəbiyyat / *References*


1. Boşboğaz ilə Güllabı, 31 avqust 1908, №7.
2. Brummet, P. Açgözlülük, kolera ve moda: Osmanlı karikatür aleminde kültürel emperyalizm, Doğuda mizah, haz.: İrene Fenoglio, François Georgeon. – İstanbul: Yapı Kredi Yayınları, 2000.
3. Çeviker, T. Tanzimattan Cumhuriyete Türk karikatürü. Tanzimattan Cumhuriyete Türk Ansiklopedisi. – İstanbul: İletişim Yayınları, 1985, c. 4.
4. Eşek dergisi, 1910, №1.
5. Georgeon, F. Şehrin Aynası: Osmanlı Mizah Basını (çev.: Elif Akçetin) Toplumsal Tarih 49. 1998.
6. Kılıçarslan, V. Baha Tevfikin Çıkardığı Mizah Qazeteleri ve Eşek. Türk Edebiyyatında Mizah Simpoziumu, Atatürk Kültür, Dil ve Tarih Yüksek Kurumu Türk Dil Kurumu Yayınları, 13-15 Mayıs 2019. – 862 s.
7. Nermin, Yazıcı. 153.https://www.google.com/search?
8. Ögüt Eker, Gülin. İnsan, Kültür, Mizah: Eglence Endüstrisinde Tüketim Nesnesi Olarak Mizah. – Ankara: Qrafiker Yayınları, 2014. – 252 s.
9. Öngören, F. Elli Yılın Türk Mizahı. – İstanbul: İş Bankası Kültür Yayınları, 1973. – 262 s.
10. Öngören, F. Cumhuriyetin 75.Yılında Türk Mizah ve Hicvi. – Ankara: İş Bankası Kültür Yayınları, 1998. – 287 s.

11. Seyhan, S. II Meşrutiyet dönemi mizah basını və içeriklerinden seçilmiş örnekler. – Ərzurum: Atatürk Üniversitesi. Turkish Studies, 2013. №8/3.
12. Şanzumi, H. Üçüncü Harname (Eşek Kitabı): Dini, Edebi, Tarihi ve Sosyolojik Bir Tahlil. – İstanbul: Peqasus Yayınları, 2006. – 304 s.

## Турецкая сатирическая пресса периода II Конституции

**Гюльбениз Бабаева**
Доктор философии по филологии, доцент
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: gulbeniz-babayeva@mail.ru

**Резюме.** Предметом исследования в статье является турецкая сатирическая пресса в период второй Конституции. Показано, что до этого сатирические журналы, в которых критиковалось бы государство и правительство, были подконтрольны царской цензуре и начало их издания было сопряжено с трудностями. После провозглашения II Конституции (1908-1918 гг.) одним из важных вопросов в жизни Турции стал выпуск сатирических журналов. В первый год работы II Конституции вышло 92 сатирических журналов и газет. До тех пор целью карикатур из жизни страны могли быть не правители и высокопоставленные вельможи, а только нижестоящие по социальной лестнице. Однако это положение осталось позади, для деятельности сатирических журналов были созданы благоприятные условия, карикатуры печатались без помех. И по этой причине влияние сатирических журналов на читательскую аудиторию было сильнее статей в газетах. В этот период, наряду с передовыми газетами «Икдам», «Сабах», «Тарджумани-хакикат», «Саадат», издавались такие сатирические журналы и газеты как «Кудук», «Хадживат», «Кахкаха» (1875), «Шака», «Шаир Недим», «Пюскуллю Бела», «Калем», «Джингёз», «Хоккабаз», «Гевезе», «Далкавук» (1908), «Джошкун Календер» («Календарь Джошкуна»), «Давул» («Барабан»), «Кел Хасан», «Лаклак» (1909), «Ешшек» («Осёл»), «Кыдык» (1910), «Джадалоз», «Джурджуна». «Фалака» (1911), «Насреддин Ходжа», «Карикатура» (1914). Хотя изначально эти журналы имели развлекательную цель, со временем они были направлены на критику недостатков в общественно-политической, социальной жизни и негативных ситуаций в стране.
**Ключевые слова:** II Машрутийят, турецкая сатирическая пресса, младотурецкое движение, «Карагез», «Зухури», «Тасвири-хаял», «Эшреф», «Хаяли-Джедит», «Фейлесоф»